

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 aprel 2025-ci il №26 (2935) https://mod.gov.az Qiyməti 30 qəpik


## Ermənistan müdafiə nazirliyi növbəti dəfə dezinformasiya xarakterli məlumat yayıb

Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Xanazax yaşayış məntəqəsi istiqamətində atəş açılması və nəticədə mədəniyyət mərkəzinə zərər yetirilməsi barədə Ermənistanın yaydığı məlumatın real əsası yoxdur, yalandır və tamamilə dezinformasiya məqsədi daşıyır.

Müdafiə Nazirliyi xəbər verir ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə heç bir atəş açılmayıb.

Bir daha bildiririk ki, Azərbaycan Ordusunun bölmələri heç vaxt mülki əhaliyə və obyektlərə atəş açmır.

Ordumuz yalnız mövqelərimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin təxribatlarına qarşı adekvat cavab tədbirləri görür.

Qarşı tərəf həqiqəti əks etdirməyən bu cür dezinformasiyalar yaymaqla beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa, son günlər mövqelərimizi müxtəlif istiqamətlərdən mütəmadi olaraq atəşə tutmaqla törətdikləri təxribatlarını gizlətməyə cəhd edir.

## “Verilən tapşırıqları layiqincə yerinə yetirməyə hər zaman hazırıq”

*Bu gün dövlət quruculuğunun əsas tərkib hissəsi olan Azərbaycan Ordusu ölkəmizin qüdrətinin nümunəsi, xalqımızın qürur və güvənc yeri, müstəqilliyimizin və təhlükəsizliyimizin qarantıdır.*



Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu şanlı ordumuz bu gün Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində döyüş qabiliyyətini durmadan artırır.

Ölkəmizdə ordu quruculuğu prosesi sürətlə davam etdirilir, arsenalımıza ən son və müasir hərbi texnikalar daxil edilir. Aparılan genişmiqyaslı islahatlar, görülən tədbirlər nəticəsində ordumuz müasir döyüş standartlarına uyğun modernləşdirilir.

Dünyanın ən güclü ordularının silahlanmasında olan artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, toplar, taktiki raket və zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları, eləcə də digər döyüş texnikaları Azərbaycan Ordusunun qoşun növlərinin silahlanmasında da yer alır. Ordu quruculuğuna göstərilən yüksək diqqət və qayğının bariz nümunəsidir ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdirərək Qələbə qazandı. Bu Zəfər ordumuzun qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu gün tarixi Zəfəri qazanaraq xalqımıza qələbə sevincini yaşadan rəşadətli ordumuzun bütün bölmələrində döyüş hazırlığının artırılması istiqamətində işlər sürətlə davam etdirilir. Əsgəri xidmətə gələn gənclər plana uyğun olaraq təşkil edilən məşğələ və təlimlərdə bacarıqlı, yüksək döyüş qabiliyyətli əsgərlər kimi formalaşırlar.

Ezamiyyətdə olarkən artilleriya hərbi hissələrindən birində keçirilən dərs prosesi də ordumuzun hazırlıqlı kadrlarının, bacarıqlı əsgərlərinin yüksək döyüş hazırlığına malik olduğunu bir daha sübut etdi. Bu, həm də onun göstəricisidir ki, döyüş hazırlığı planına uyğun olaraq bütün bölmələrdə məşğələlər yüksək səviyyədə keçirilir, şəxsi heyətin döyüş qabiliyyəti və praktiki vərdişləri daim təkmilləşdirilir.

(Ardı 5-ci səhifədə)

## Yaşar Güler: Türkiyə regionda ziddiyyətlərin dialoq yolu ilə nizamlanması tərəfdarıdır

Türkiyə regiondakı bütün ziddiyyətlərin dialoq yolu ilə nizamlanması tərəfdarıdır. Məqsədimiz arzuolunmaz hadisələrə yol verməmək və Ankaranın maraqlarına zidd status-kvonun qarşısını almaqdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin milli müdafiə naziri Yaşar Güler Silahlı Qüvvələrin qoşun növləri komandanlarının iştirakı ilə keçirilən müşavirədə deyib.

Nazir qeyd edib ki, Türkiyə ordusu üzərinə düşən vəzifələri yerinə yetirdiyi bölgələrdə sabitliyə və sülhə töhfə verməkdə davam edir.

Y.Güler bildirib: "Liviya və Somalidə, Qara və Aralıq dənizlərində Silahlı Qüvvələrimizə həvalə edilmiş missiyalar, Avropa təhlükəsizlik arxitekturasında iştirak etməyimiz müasir Türkiyənin təhlükəsizliyə töhfə verən qlobal amil olduğunu göstərir. NATO və digər beynəlxalq missiyalar çərçivəsində bütün tapşırıqları şərəflə yerinə yetiririk".

Milli müdafiə naziri çoxsaylı təlimlər vasitəsilə Türkiyə hərbçilərinin peşəkarlıq səviyyəsinin artırılmasına diqqət çəkib.

Türkiyəli nazir daha sonra PKK terror təşkilatının tərksilah edilməsi və özünü ləğv etməsi mövzusuna toxunub.

O, Suriya da daxil olmaqla regionda davam edən antiterror əməliyyatlarına diqqət çəkərək bildirib: "Silahını yerə qoymaqdan imtina edən istənilən struktur Türkiyə Silahlı Qüvvələrinin qanuni hədəfidir".

## Hazırlıqlı ordu - sarsılmaz dövlətin əsas zəmanəti



Güclü ordu - güclü dövlətin başlıca təminatıdır. Zəmanəmizdə geosiyasi risklər və regional təhdidlər fonunda hər bir ölkənin təhlükəsizlik strategiyasında hərbi qüdrətin artırılması ön sıralardadır. Xüsusilə də müharibədən yeni çıxmış və qələbə qazanmış ölkəmiz üçün bu, böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdəndir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, o cümlədən müasir döyüş texnologiyalarının ordumuzda tətbiqi və şəxsi heyətin hazırlıq səviyyəsinin artırılması prioritet məsələlərdəndir. Bu istiqamətdə mühüm vasitələrdən biri də ehtiyatda olan hərbi vəzifəlilərin cəlb olunduğu təlim toplanışlarıdır.

2025-ci ilin hazırlıq planına uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə həyata keçirilən növbəti təlim toplanışı ordumuzun peşəkarlığını artırmaq, hərbi qulluqçuların döyüş qabiliyyətini və ruh yüksəkliyini daha da gücləndirmək məqsədi daşıyır.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan gənci - vətənpərvərlik nümunəsi



Vətənpərvərlik - öz Vətəninə, doğma torpağına və xalqına olan dərin məhəbbətdir. Bu məfhum Vətənin rifahı, xalqın firavanlığı uğrunda gecə-gündüz çalışmaq, onu göz bəbəyi kimi qorumaq, milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq qalmaq, ən başlıcası bayrağının daim yüksəklərdə dalğalanmasında pay sahibi olmaq və digər sadalamadığım ümdə vəzifələri özündə birləşdirir. Vətən sevgisi bir duyğu və keyfiyyət olmaqla yanaşı, həm də davranış tərzidir. Çalışdığın hər bir peşədə, düşdüyün hər bir mühitdə, ölkə daxilində və ya xaricində, bir sözlə, olduğun hər bir yerdə öz milli-mənəvi dəyərlərini qorumaq, bayrağını yüksəkdə dalğalandırmaq, hər an Vətən üçün mübarizəyə qalxmağa hazır olmaq Vətən sevgisinin təcəssümüdür.

Hələ ötən əsrin sonlarında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və onun rəhbərliyi altında ölkəmizdə aparılan gənclər siyasətinin ən vacib istiqamətlərindən biri gələcəyimizin memarı olan gənc nəslin vətənpərvər ruhda böyüməsi və tərbiyə edilməsi idi. Məhz uzaqgörən Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyəti dönəmində Azərbaycan gəncliyinin vətənpərvər ruhda tərbiyə edilməsinin vacibliyi teztez qeyd olunub, vətənpərvərlik işinin aparılması məqsədilə aidiyyəti qurumlar qarşısında mühüm tapşırıqlar qoyulub. Azərbaycan xalqının Ümummilli Lideri, gənclərin sevimlisi olan Dahi Rəhbər Heydər Əliyev onlarla görüş əsnasında Vətənə məhəbbəti, xalqa sevgini, milli-mənəvi dəyərlərə sədaqəti gələcəyin memarları üçün xüsusi vurğulayırdı. Ulu Öndərin öyüd və nəsihətlərini öz həyat yollarına mayak edən gənclər son 10 ildə misli görünməmiş döyüş salnaməsi yazaraq əsl vətənpərvərlik nümunəsini bütün dünyaya göstərdilər.

Ali Baş Komandanına sadiq, Vətəninə və xalqına bağlı olan gənclərimiz 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri, 2020-ci ilin Tovuz döyüşləri və həmin ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi (və ondan sonrakı tarix), 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə vətənpərvərliyin təkcə sözdə deyil, əməldə olduğunu da öz qəhrəmanlıqları ilə sübut etdilər. Döyüşlər vaxtı gənc Vətən müdafiəçisi olan övladlarımızın gözündə qisas, üzündə məğrurluq ifadəsi var idi. Onların hər biri bu müqəddəs amala çatmaq - Vətən torpaqlarını işğaldan azad etmək üçün başlanan mübarizənin bir parçası olmaq istəyirdi. Azadlıq mübarizəmiz üçün ölkəmizin hər bir yerindən olan, yaşından, dinindən, irqindən, milliyyətindən asılı olmayaraq hər biri Vətən övladı tarixi torpaqlarımız düşməndən təmizləmək üçün bir yumruqtək birləşərək Böyük Qələbə uğrunda döyüşlərdə iştirak etdilər.

(Ardı 4-cü səhifədə)

# Antalyada Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında görüş keçirilib







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Antalya şəhərində keçirilən "Antalya Diplomatik Forumu" çərçivəsində Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə hər iki qardaş ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Rusiya Hərbi Akademiyasının nümayəndə heyəti Milli Müdafiə Universitetində olub





Rusiya Federasiyasi Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Akademiyasının rəisi, tarix elmləri namizədi general-polkovnik Vladimir Zarudnitskiyin rəhbərlik etdiyi nümayəndə heyəti Milli Müdafiə Universitetində (MMU) olub.

Müdafiə Nazirliyi xəbər verir ki, MMU-da keçirilən görüşdə Universitetin rektoru general-mayor Gündüz Əbdülov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu ifadə edib.

Görüşdə Azərbaycan və Rusiya arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Rusiyalı qonaqlara MMU-nun yaranma tarixi, təhsil sistemi, eləcə də qarşıda duran məqsəd və vəzifələrindən bəhs edən brifinq təqdim olunub.

Sonra Rusiya nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib.

Nümayəndələrə Hərbi İnstitutun tarixi və əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

# Milli Müdafiə Universitetində zabit heyətinin təkmilləşdirmə kursunun 70-ci buraxılış mərasimi keçirilib





*Azərbaycanda ordu quruculuğu prosesi İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən sonra uğurla davam etdirilir. Milli Müdafiə Universitetinin (MMU) yaradılması ilə bu prosesin elmi-nəzəri şəbəkəsi genişləndirilmişdir.*

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun Təlim-Tədris mərkəzində MMU-da zabit heyətinin təkmilləşdirmə kursunun 70-ci buraxılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Çıxış edən MMU rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov MMU-nun fəaliyyətindən, hərbi tədris prosesindən, bu istiqamətdə həyata keçirilən yeniliklərdən, zabit heyətinin təkmilləşdirmə kurslarının ordu quruculuğunda səmərəsindən danışıb, məzun olanları kursu müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edib.

Daha sonra kursu fərqlənmə ilə bitirən kapitan Müşfiq Rəhimli çıxış edərək belə kursların ordu quruculuğunda əhəmiyyətindən söz açıb, bu kursda əldə olunan yeni elmi biliklərin qoşunlarda döyüş hazırlığı prosesində uğurla tətbiq ediləcəyini bildirib.

Sonra kursu fərqlənmə ilə bitirənlərə fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Yekunda zabitlərə sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

# ANAMA: Ötən həftə 1245.5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 7-dən 13-dək aparılan minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 86, tank əleyhinə 12 mina və 224 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1245.5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Müdafiə Nazirliyində media nümayəndələri ilə görüş keçirilib

*Aprelin 11-də Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində Nazirliyin, Medianın İnkişafı Agentliyinin və media subyektlərinin nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.*





Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Qonaqlara müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası ilə bağlı ətraflı məlumat verilib.

Tədbirdə Müdafiə Nazirliyi tərəfindən kommunikasiya, o cümlədən media və ictimaiyyətlə əlaqələr sahəsində görülən işlər, vətəndaş müraciətlərinin operativ cavablandırılması və vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər, hərbi təhsil sisteminin təşkili, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul qaydaları ilə bağlı brifinqlər təqdim edilib.

Çıxış edənlər gənclər arasında hərbi vətənpərvərliyin təbliğinin, müsahibə və çəkilişlər zamanı hərbi sirrin qorunmasına riayət edilməsinin vacibliyini diqqətə çatdırıblar.

Sonda ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı suallar cavablandırılıb və tədbir iştirakçılarının təklifləri dinlənilib.



# Rusiya Federasiyasında təhsil alan azərbaycanlı hərbi qulluqçularla görüş keçirilib



Sankt-Peterburq şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri Rəhman Mustafayev buradakı ali hərbi təhsil müəssisələrində təhsil alan zabit və kursantlarla görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, Fövqəladə və Səlahiyyətli səfir R.Mustafayev hərbi qulluqçularla Azərbaycan-Rusiya əməkdaşlığı, eləcə də beynəlxalq və regional proseslərdə ölkəmizin mövqeyi barədə geniş söhbət edib, onları maraqlandıran sualları cavablandırıb.

Baş Konsulluğun başçısı vəzifəsini icra edən Anar Yusifzadənin və hərbi attaşe polkovnik Kənan Təhməzovun da iştirak etdiyi görüş zamanı Azərbaycan nümayəndə heyəti zabit və kursantlarımızın məişət şəraiti və təhsil prosesi ilə yaxından tanış olub.



# Hərbi Tibb Fakültəsinin və Müdafiə Nazirliyinin Tibb İdarəsinin zabitləri beynəlxalq konfransda iştirak ediblər

*Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsi Tibbi profilaktika kafedrasının baş müəllimi, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov və Müdafiə Nazirliyi Tibb İdarəsinin zabiti, tibb xidməti mayoru Fuad Zeynalov Almaniya Federativ Respublikasının Münhen şəhərində yerləşən "Bundesvehr Mikrobiologiya İnstitutu"nda (The Bundeswehr Institute of Microbiology) "Tibbi Biomüdafiə və Sintetik Biologiyada İnnovasiyalar" mövzusunda keçirilən "19-cu Tibbi Biomüdafiə Konfransı"nda (Medical Biodefense Conference MBDC2025) iştirak ediblər.*






Almaniya Silahlı Qüvvələrinin Mikrobiologiya İnstitutu tərəfindən təşkil edilən və Münhendə hər iki ildən bir keçirilən beynəlxalq konfransda bu il ümumilikdə 58 dövlətdən 500-dən çox mütəxəssis iştirak edib.

Konfrans zamanı plenar sessiyalar, poster sərgiləri və seminarlar vasitəsilə pandemiyalara hazırlıq və əksepidemik cavab tədbirləri də daxil olmaqla tibbi biomüdafiə sahəsində ən aktual problemlər, onların həlli və ən son yeniliklərlə haqqında danışılıb.

Dünyanın hər yerindən elm, səhiyyə sektoru və tibbi biomühafizə sahəsi üzrə digər mütəxəssislərin də bir araya gəldiyi, hərbi, elmi tədqiqat və tibb sahələrini təmsil edən çoxlu sayda beynəlxalq ekspertlərin iştirak etdiyi konfransın panel bölmələrində müasir molekulyar biologiya, biokimya və virusologiya, biotexnologiya, mikrobiologiya və tibbi tədqiqatlar barədə ətraflı müzakirələr aparılıb.

Üç gün davam edən tədbirdə biotəhsil də diqqət mərkəzində olub. Gəmilərin dekontaminasiyası, biotoksin tədqiqatlarında innovativ bioinformatikanın inkişafı və yeni tapıntılardan tutmuş, klinik hallara və bakteriofaqların diaqnostika və müalicədə mümkün tətbiqi, eləcə də təhlükəli yoluxucu virusların səbəb olduğu xəstəliklərin aşkar edilməsi, qarşısının alınması və müalicəsi üzrə son tədqiqat nəticələrinə qədər geniş sahə əhatə olunub. Bioloji təhlükələrin qarşısının alınması sahəsində dünyanın aparıcı tibb forumu olan bu konfransın bölmələrində antimikrobial və bioforensika, narahatlığın ikili istifadəli tədqiqatları, epidemiyanın idarə edilməsi, zoonozlar və digər mövzulara yer verilib.

Tədbirin prezidenti çıxışında bu konfransın dünyada elmi dostluq və həyat elmlərinin sülh yolu ilə tətbiqinə bir töhfə olduğunu vurğulayıb.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# İtaliyalı kursantlar Heydər Əliyev adına Hərbi İnstitutda olublar







"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında 2024-2025-ci illər üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq Planı"na əsasən, təşkil olunan "Hərbi Akademiyalar arasında kursant mübadiləsi tədbiri"nin səfər proqramı çərçivəsində adıçəkilən ölkənin kursantları Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda olublar.



Milli Müdafiə Universiteti xəbər verir ki, İtaliyanın Azərbaycandakı hərbi attaşesi 1-ci dərəcəli kapitan Cianfranko Vizzininin də iştirak etdiyi görüşdə əvvəlcə Heydər Əliyev adına Hərbi İnstitutun rektoru polkovnik Ümüdvar Quliyev qonaqları qəbul edərək, onları institutda görməkdən məmnunluğunu ifadə edib. Günün fəaliyyətlər planı ilə bağlı qonaqlar məlumatlandırıldıqdan sonra, akt zalında hərbi institutun tarixi, təhsil mexanizmi, qarşıda duran məqsədləri və digər zəruri mövzuları əhatə edən brifinq nümayiş olunub. Brifinqin sonunda iştirakçı qonaqları maraqlandıran suallar cavablandırılıb.

Brifinq başa çatdıqdan sonra italiyalı kursantlar tədris korpuslarında keçirilən dərs prosesi ilə tanış olublar. Onlara dərs prosesinin təşkili mexanizmləri barədə məlumatlar verilib.

Kursantlar Heydər Əliyev adına Hərbi İnstitutda nahar ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

# Hazırlıqlı ordu - sarsılmaz dövlətin əsas zəmanəti

## Ehtiyatdan çağırılan hərbi vəzifəlilərin təlim toplanışı - Vətənə sədaqətin növbəti təzahürü



(Əvvəli 1-ci səhifədə)

Təlimdə iştirak edən hərbi vəzifəlilər ilkin olaraq qeydiyyat prosedurlarından keçdi, tibbi müayinə olunduqdan sonra hərbi geyim və təchizat vasitələri ilə təmin edildilər. Toplanışın planına uyğun olaraq daha sonra təhlükəsizlik qaydaları və silahların texniki imkanları barədə maarifləndirici söhbətlər aparıldı. Ehtiyatda olan hərbi vəzifəlilər sonra sıra, atəş və digər hazırlıq məşğələlərinə cəlb olundular. Bu təlimlər təkcə hərbi biliklərin yenilənməsi deyil, həm də vətənpərvərlik tərbiyəsinin aşılanması baxımından əhəmiyyətlidir.

2020-ci ilin payızında ölkəmizin taleyini dəyişən 44 günlük Vətən müharibəsi tariximizin şanlı səhifəsi olduğu qədər, döyüş əməliyyatlarında iştirak edən hər kəsin həyatında dərin izlər buraxan bir mərhələdir. Həmin müharibədə Cəbrayıl və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə şücaətlə vuruşmuş və medallarla təltif olunmuş baş leytenant Nicat Abbasov bu gün də öz vəzifə borcuna eyni ruh, eyni məsuliyyətlə yanaşır.

O, ehtiyatdan çağırıldığı bu təlim toplanışında həm keçmiş döyüş təcrübəsini bölüşür, həm də yenidən döyüş meydanına dönəcəkmiş kimi hazırlıqlarını təkmilləşdirir. Baş leytenant Nicat Abbasovla təlim meydanında görüşüb suallarımızı ünvanladıq: "Torpaqlarımızı təkcə azad etmək deyil, qorumaq da böyük məsuliyyətdir. Biz müharibədə canımızla, qanımızla torpaqlarımızı düşməndən azad etdik. İndi isə bu qələbənin məsuliyyətini daşıyırıq. Təlimlər göstərir ki, biz də özümüzü Vətənin müdafiəsinə daima hazır saxlamalıyıq. Mən də Vətən müharibəsi iştirakçısıyam. Hər bir döyüşçü kimi yaddaşımda igidlik, sədaqət və qələbə hissi yaşayır. Bu gün burada təlimdə gənclərin gözlərində eyni ruhu görürəm. Müharibə zamanı öyrəndiyim bir şey var - düşmənə qarşı qalib gəlmək üçün təkcə güc yox, həm də ağıl və çeviklik lazımdır. Bu təlimlər isə bizdə məhz o cəhətləri inkişaf etdirir. Biz bu gün burada hər bir tapşırığı yerinə yetirəndə bilirik ki, bu məşq deyil, gələcəkdə lazım ola biləcək həyat təcrübəsidir", - deyə cavab verdi.



Kiçik çavuş Kərim Hacıyev: "Müharibədə iştirak etmiş biri kimi deyə bilərəm ki, sülh dövründə belə hazırlıqların keçirilməsi gələcək təhlükələrin qarşısının alınmasında əvəzolunmazdır. Hərbi təcrübə zamanla unudula bilər, amma bu cür təlimlər onu daim təzələyir. Burada gənclərlə təcrübəmizi bölüşmək, onlara örnək olmaq bizim üçün də məsuliyyətli və qürurvericidir".

Elçin Vəliyev: "Burada öyrəndiklərimiz bizə təkcə keçmişi xatırlatmır, eyni zamanda, bizi gələcək mümkün təhdidlərə qarşı daha çevik və hazır vəziyyətə gətirir. Təlimdə nizam-intizam, çeviklik və döyüş texnikası baxımından real təcrübə qazanırıq. Dövlətimizin bizə olan bu etimadını doğrultmaq üçün var gücümüzlə çalışırıq".



Sənan Eyvazov: "Əldə etdiyimiz biliklər və praktiki vərdişlər sayəsində istənilən anda ana Vətənimizin müdafiəsinə qalxmağa hazırıq. Ordumuzun arsenalında olan müasir silahları tətbiq etmək bacarığımız, döyüş mövqelərinin qurulması, gizlənmə və kəşfiyyat təcrübələri burada xüsusi diqqət mərkəzindədir. Ən əsası isə komanda ruhu, həmrəylik və milli birliyin real nümunəsini yaşayırıq".

Bəhram Tağıyev: "Biz zəfəri şəhidlərimizin qanı, canı, şücaəti hesabına qazandıq. İndi isə onu qorumaq üçün qəlbimizlə və əzmkarlığımızla çalışırıq. Təlimlər bizə həm fiziki, həm də mənəvi möhkəmlik qazandırır. Gənclərlə bir sırada durmaq, onlara ruh vermək, bir daha sübut edir ki, xalq-ordu birliyi sarsılmazdır".





Plana uyğun olaraq mütəmadi şəkildə keçirilən təlim toplanışları göstərir ki, ehtiyatda olan hərbi vəzifəlilərin hazırlıq səviyyəsinin daim yüksək vəziyyətdə saxlanılması, onların döyüş qabiliyyətlərinin artırılması müasir müharibə reallıqlarına tam uyğunlaşdırılmış siyasətdir.

Güclü ordu müstəqil Azərbaycanımızın gələcəyinin möhkəm siperidir!

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan gənci - vətənpərvərlik nümunəsi

(Əvvəli 1-ci səhifədə)

Xalqının və rəhbərinin ona olan etimadını layiqincə doğruldan gənclərimizin bu gün ruh yüksəkliyi pik həddədir. Şəhid qardaşlarımızın qanı ilə yazdığı tarix hər bir gəncimiz üçün Vətən sevgisinin möhürüdür. Azərbaycan gəncliyi əziz şəhidlərinin qisasını döyüş meydanında aldı, bu gün işğaldan azad olunan ata-baba yurdumuzda dalğalanan üçrəngli bayrağımız bu qisasın əsas göstəricisidir. Şəhid qanı ilə vətənləşən torpaqlarımız gələcək nəsil üçün ən böyük mirasdır. Bu mirası göz bəbəyi kimi qoruyacaq gənclərimiz öz sələflərinin qəhrəmanlıq nümunələrini bir ömür yaşadacaqlar.

Bu gün sevindirici haldır ki, qalib Azərbaycan Ordusunun sıralarında olmaq, güclü ordunun mundirini daşımaq üçün gənclərimiz həqiqi hərbi xidmətə başlayacağı günü səbirsizliklə gözləyirlər. Hətta ömür yolunu hərb peşəsi ilə bağlayanların sayında da gün keçdikcə artım müşahidə edilir. Bunun əsas səbəbi isə gənclərimizin Vətən sevgisi, fədakarlıq, dözümlülük, cəsurluq, intizam və digər keyfiyyətlərin cəmləşdiyi hərb peşəsinin özünəməxsus müqəddəsliyidir. Vətən torpağını özünə səcdəgah bilən, toxunulmazlığı üçün yeri gələrsə, canından keçməyə hazır olan gənc hərbçilərimiz bu gün ordu sıralarında xidmətdədir və daha minlərlə qəhrəman gənclərimiz də yetişir. Belə olan təqdirdə tam əminliklə deyə bilərik ki, Vətənimiz etibarlı əllərdədir. Çünki Azərbaycan gənci vətənpərvərdir, vətənpərvər olan isə məğlubedilməzdir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# “Verilən tapşırıqları layiqincə yerinə yetirməyə hər zaman hazırıq”



(Əvvəli 1-ci səhifədə)

Polkovnik-leytenant Elşən Hüseynovla söhbət əsnasında öyrənirik ki, hərbi hissə 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında şərəfli döyüş yolu keçərək torpaqlarımızın işğaldan azad olunmasında və suverenliyimizin tam bərpa edilməsində əhəmiyyətli rol oynayıb. Əməliyyatlar zamanı qızğın döyüşlərin getdiyi dövrdə də bu hərbi hissənin şəxsi heyəti peşəkarlıq və fədakarlıq nümunəsi göstərib.

Döyüş hazırlığı ilə bağlı yazı hazırlayacağımı bildirəndə polkovnik-leytenant E.Hüseynov artilleriya divizionunun adını çəkdi. Zabitlə döyüş xatirələrindən danışa-danışa bölməyə yollandıq. Burada şəxsi heyət məşğələyə cəlb edilmişdi. Ənənəvi olaraq top komandiri tərəfindən heyət təlimatlandırılırdı. Sonra hər kəs vəzifəsinə uyğun olaraq üzərinə düşən tapşırığı icra edirdi. Zabit E.Hüseynov bildirdi ki, bölmələrdə plana uyğun olaraq keçirilən dərslər zamanı şəxsi heyətin döyüş qabiliyyəti və bacarığı durmadan təkmilləşdirilir. İzlədiyimiz dərs prosesi zabitin dediklərinin təsdiqi idi. Şəxsi heyətin verilən tapşırıqların öhdəsindən bacarıqla gəldiyinin şahidi olduq. Hiss olunurdu ki, artilleriya bölməsi gündəlik olaraq taktiki təlimləri davam etdirir, bu sahədə nəzəri və praktiki hazırlığını mütəmadi olaraq artırır.

Polkovnik-leytenant E.Hüseynov qeyd etdi ki, artilleriya müharibədə qələbənin qazanılmasında mühüm rola malik olduğuna görə, bu hərbi ixtisasın sirləri şəxsi heyətə dərindən aşılanır. "Tarixi qələbəmizlə başa çatan İkinci Qarabağ müharibəsi, eləcə də ondan sonrakı digər uğurlu əməliyyatlarda qazandığımız təcrübəyə əsaslanaraq demək istəyirəm ki, artilleriya müharibənin taleyində vacib sayılan qoşun növlərindən biridir. Düşmənin müdafiə səddinin və qüvvələrinin darmadağın edilməsində mühüm rola malikdir. Çalışırıq ki, qurğunun idarə edilməsinə cavabdeh olan heyət üzvləri öz vəzifələrinin öhdəsindən bacarıqla gəlmək üçün döyüş vərdişlərinə lazımınca yiyələnsinlər. Bundan əlavə, hər bir heyət nəfəri başqa döyüş vəzifəsində də öz silahdaşını əvəz etməyi bacarmalıdır. Çünki döyüşdə itkisiz keçinmək olmur. Bunu yaxşı dərk edən artilleriyaçılar da dərslər zamanı nəzəri bilikləri öyrənməyə, praktiki vərdişlərini təkmilləşdirməyə can atır, təlim və məşğələlərdə əzmkarlıq göstərirlər. Onların hər biri Vətənimizə, xalqa və dövlətə layiqli əsgər kimi formalaşmağı qarşısına məqsəd qoyub".

Məşğələ başa çatdıqdan sonra heyət üzvləri ilə söhbətləşirəm.

Bölmənin komandiri kapitan Əvəz Səlimov hərbi təhsilini artilleriya ixtisası üzrə alıb. Uğurlu xidmət yolu keçən zabit işğal altında olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə medallara layiq görülüb.

Zabitdən öyrənirəm ki, halhazırda bölmə mövzuya uyğun tapşırıqları icra edir. O, şəxsi heyətin artilleriya qurğusunu "döyüşə" və "səfərə" vəziyyətinə gətirmə, hədəfləri tuşlama normativlərini yerinə yetirdiyini bildirdi: "Bölmənin zabiti rabitə vasitəsilə tapşırığı alaraq, hesabatlar aparır və top komandirlərinə məlumatları ötürür, top heyəti hədəfi tuşladıqdan sonra bölmənin döyüşə hazır olması barədə məruzələr olunur. Həmçinin onu da dedi ki, tapşırıqların icrası zamanı heyətlər yüksək hazırlıq nümayiş etdirirlər.

Kapitan Ə.Səlimov, həmçinin qeyd etdi ki, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması uğrunda gedən döyüşlərdə Vətənimizin mərd oğulları düşmənə sözlərini döyüş meydanında qətiyyətlə deyiblər. "İgid oğullarımız vətənpərvərliklərini, dövlətimizə və xalqımıza bağlılıqlarını qazandıqları qələbələr ilə sübut etdilər. Düşmən hədəflərinin dəqiq və sərrast atəşlə məhv edilməsində yüksək döyüş hazırlığı nümayiş etdirərək keçirilən dərslərdə, təlimlərdə silahların və hərbi texnikaların sirlərinə dərindən yiyələndiklərini nümayiş etdirdilər".

Top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İsax Cəmilli əldə etdikləri bilik və bacarıqları bu gün heyət üzvlərinə aşıladığını vurğuladı: "Mütəmadi tədris olunan nəzəri və praktiki dərslərlə yanaşı,



mütəmadi keçirilən təlimlərdə əsgərlərimiz bacarıqlı artilleriyaçılar kimi formalaşırlar. Bölməmizin şəxsi heyətinin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Döyüş meydanında qazanılan təcrübələrdən istifadə edərək hazırlığımızı artırırıq. İstənilən döyüş əməliyyatlarında iştirak etməyə və verilən tapşırıqları layiqincə yerinə yetirməyə hər zaman hazırıq".

Məşğələ zamanı çeviklik və bacarıqla tapşırıqları icra edən topçularla da söhbətləşdim.

Əsgərlər Amil Balaşov, Abdulla Şıxıyev, Elgün Süleymanov, Malik Əhmədov, Alişan Həsənov və Yusif Məmmədov qalib Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən qürur duyduqlarını bildirdilər: "Hərbi xidmətə gəldiyimiz ilk gündən bizə diqqət və qayğı göstərilir. Bütün təminatlarımız yüksək səviyyədədir. Komandirlərimizdən bilmədiklərimizi öyrənir, təlimlərdə həvəslə iştirak edirik. Təlim və dərslərdə topun bütün xüsusiyyətlərini, verilən hədəfi dəqiq nişan almağı, eləcə də digər nəzəri və praktiki bilikləri mənimsəyirik. Yaxşı bilirik ki, hər təlim döyüş hazırlığımızı daha da möhkəmləndirir. Hər birimiz yüksək döyüş hazırlığına malik olan bacarıqlı artilleriyaçılar kimi formalaşırıq. Biz şanslı gənclərik ki, tarixi torpaqlarımızı işğaldan azad etmiş və xalqımıza qələbə sevincini yaşatmış şanlı ordumuzun əsgərləriyik. Ordu sıralarından bacarıqlı əsgərlər kimi tərxis olunacaq, ailəmizin yanına qalib ordunun əsgərləri kimi başıuca qayıdacağıq".

Onlar qətiyyətlə dedilər ki, istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə, yeni qəhrəmanlıq salnamələri yazmağa hər an hazırdırlar.

Müxtəlif qoşun növlərində və bölmələrdə keçirilən intensiv təlimlər onun göstəricisidir ki, ordu quruculuğunda həyata keçirilən islahatlar döyüş qabiliyyətinin artırılmasına istiqamətlənib. Məhz bunun nəticəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuz torpaqlarımızı azad etmək və işğalı sonlandırmaq missiyasını layiqincə icra etdi. Bu gün hər bir Azərbaycan vətəndaşı qürurla və inamla deyir ki, ölkəmizin sərhədlərini, ərazi bütövlüyünü bütün təhdidlərdən qətiyyətlə qoruya bilən qüdrətli, yenilməz və döyüşlərdən hər zaman qalibiyyətlə çıxan ordumuz var.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# “Ruh yüksəkliyi olan yerdə intizam da olur, nəticə də”

Yenə də yolumuz hərbi hissələrdən birinədir. Nəzarətburaxılış məntəqəsindən hərbi hissənin ərazisinə keçərkəçməz qürur və fəxarət hissi keçiririk.

Məqsədim hərbi hissədə hərbi qulluqçularımızın mənəvi-psixoloji vəziyyətini öyrənməkdir. Hərbi hissənin psixoloqu kapitan Bəhruz Məmmədov ilə görüşdük. Zabit hərbi qulluqçularımızın həm nəzəri, həm də praktiki bacarıqlarını artırmağa xüsusi diqqət yetirdiyini, şəxsi heyətin nümunəvi xidmət etdiyini vurğuladı. "Hərbçilərimiz seçdikləri peşənin məsuliyyətini dərk edir və Vətənə xidmət etməyin qürurunu yaşayırlar. Belə hərbçilərimizlə hər zaman qürur duyuruq".

***Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçular daşıdıqları hərbi mundirin məsuliyyətini hiss edərək, torpaqlarımızın ərazi bütövlüyünü və suverenliyini qorumaq, üçrəngli bayrağımızı hər zaman zirvələrdə dalğalandırmaq məqsədilə əllərindən gələni əsirgəmirlər.***



Bəhruz Məmmədov bu gün müstəqil dövlətimizin qüdrətli ordusunun bir zabiti olmasından böyük qürur hissi keçirdiyini bildirdi. O, 44 günlük Vətən müharibəsi və ondan sonrakı əməliyyatlarda ordumuzun gücünün düşmənə və dünyaya bəlli olduğunu vurğuladı. Yuxarı komandanlığın şəxsi heyətin qayğı və problemləri ilə maraqlandığını, xidmətin yüksək səviyyədə təşkil olunması üçün bütün şəraitin yaradıldığını qeyd etdi: "Hərbi hissələrimiz müasir standartlara uyğun olaraq yenidən tikilib istifadəyə verilib. Hərbi qulluqçularımızı yalnız bir şey narahat edirdi - tarixi torpaqlarımızın düşmən işğalı altında olması. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi ədaləti bərpa edərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdi. Artıq azad edilmiş ərazilərimizdə həyat yenidən canlanır. Öz dədə-baba yurdundan didərgin düşmüş soydaşlarımız el-obalarına qayıdırlar. Bu sevinci xalqımıza yaşadan Azərbaycan əsgəri bu gün əzəli və əbədi olan torpaqlarımızın ərazi bütövlüyünü qorumaq üçün əlindən gələni əsirgəmir, Vətənə olan övladlıq borcunu layiqincə yerinə yetirir".

Zabit Bəhruz Məmmədov hərbi hissələrdəki psixoloji mühitə də toxunaraq bildirdi ki, şəxsi heyətin ruh yüksəkliyi və mənəvi-psixoloji hazırlığı onun döyüş qabiliyyətinə birbaşa təsir göstərir: "Hərbi qulluqçuların psixoloji dayanıqlığı bizim üçün çox vacibdir. Komandirlər yalnız əmrlərin icrasını deyil, şəxsi heyətin mənəvi-psixoloji durumunu da diqqətdə saxlamalıdırlar. Biz çalışırıq ki, şəxsi heyət bir ailə kimi bir-birinə bağlı olsun. Bu, həm gündəlik xidmətdə, həm də döyüş meydanında özünü göstərir. 44 günlük Vətən müharibəsində də bunun əyani şahidi olduq. Ruh yüksəkliyi olan yerdə intizam da olur, nəticə də".

Zabit qeyd etdi ki, hərbi hissədə şəxsi heyətlə mütəmadi psixoloji söhbətlər aparılır, müxtəlif təlimlər zamanı komanda ruhunun gücləndirilməsinə xüsusi diqqət yetirilir.

Tabeliyindəki şəxsi heyətə qarşı son dərəcə tələbkar və qayğıkeş olan kapitan Bəhruz Məmmədov bildirdi ki, komandir əvvəlcə kollektivdə şəxsi nümunə olmağı bacarmalıdır. "Bunun üçün insan gərək özünə qarşı ikiqat tələbkar olsun. Mütəmadi olaraq mütaliə etməli, zahiri görünüşünə diqqət yetirməli və şəxsi heyətinin təlim-tərbiyəsi, nizam-intizamı ilə yaxından maraqlanmalıdır", - deyə B.Məmmədov vurğuladı. Zabitlə söhbətimizi xoş təəssüratlarla tamamladı. Bu müqəddəs və şərəfli yolda ona uğurlar arzulayaraq yolumuza davam etdik.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# HDQ-nin dalğıc heyəti ilə təlim-metodiki toplanış keçirilib





Hərbi Dəniz Qüvvələrinin (HDQ) 2025-ci il üçün təsdiq edilmiş hazırlıq planına əsasən, dalğıc heyəti ilə keçirilən təlim-metodiki toplanış çərçivəsində axtarış-xilasetmə və dalğıc işləri üzrə ixtisas məşğələləri intensiv olaraq davam etdirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, tibb personalı tərəfindən müayinədən keçmiş dalğıclar tapşırıqları icra etməyə buraxılıb. Heyətin işarələrlə xəbərləşmə və idarəetmə bacarıqları qənaətbəxş hesab edilib. Cari mərhələdə sualtı hərəkət vasitələri və digər axtarış üsullarından istifadə edərək batmış obyektin axtarışı, tapılması və su üzərinə qaldırılması üzrə praktiki tapşırıqlar yerinə yetirilib.



Bundan başqa, toplanış zamanı barokamerada insan orqanizminin yüksək təzyiqə uyğunlaşdırılması, qəzalı dalğıca ilk yardımın göstərilməsi üzrə nəzəri və praktiki məşğələlər yerinə yetirilib. Şəxsi heyət səthdən qidalanma üsulu ilə sualtı dalğıc işlərini həyata keçirərək nəzəri biliklərini təcrübədə tətbiq ediblər.

Qeyd edək ki, toplanışın əsas məqsədi dalğıc heyətinin ixtisas hazırlığının artırılması, eləcə də bilik və bacarıqlarının təkmilləşdirilməsidir.





*Əsgərin tribunası*

## Şərəfli Azərbaycan əsgəri adını qürurla daşıyıram



Vətənin müdafiəsində dayanmaq, onu qorumaq nə qədər şərəflidirsə, bir o qədər də müqəddəsdir. İgid Azərbaycan əsgəri bu şərəfi, bu müqəddəsliyi 44 günlük Vətən müharibəsində qanı ilə tarix yazaraq qorudu. Torpaqlarımızın azadlığı uğrunda şərəfli döyüş yolu keçənlər illərə, əsrlərə söykənən xalqımızın milli-mənəvi dəyərlərində əsas yer alan qəhrəmanlıq ənənələri əməlləri ilə davam etdirib yaşatdılar. Onların Vətən uğrunda atdıqları cəsarətli addımlar bu günün, sabahın əsgərlərinin xidmət yoluna işıq salan bir mayaka çevrildi.

Vətənə xidmətimizdə igid hərbçilərimizin, döyüş yolu hər zaman bizə örnək olub. Həmişə dostlarımla Şəhidlər xiyabanına gedir, Vətən uğrunda canından keçən şəhidlərimizin məzarlarını ziyarət edir, əziz xatirələrini anırıq. Sovet ordusunun Bakı şəhərində törətdiyi 20 Yanvar qırğınları, erməni hərbi birləşmələri tərəfindən törədilmiş Xocalı faciəsi, eləcə də Birinci Qarabağ müharibəsinin dəhşətləri bizim qan yaddaşımızdır. Tariximizin qanlı yaddaşını heç bir zaman unutmamalıyıq. Şəhidlərimizin xatirəsi anım tədbirləri ilə daim yad olunur. Bir ildir mən də hərbi forma geyinərək güclü ordumuzun əsgəri olaraq hərbi xidmətdəyəm. Bu, mənim üçün qürurvericidir. Hər zaman arzulamışam ki, Vətənin keşiyində dayananlardan biri olum. Hər bir Azərbaycan oğlu Vətən darda olarsa, canını ona sipər etməli, lazım gələrsə, canından keçməlidir. Bu hər birimizin şərəf, vicdan borcumuzdur. Necə ki, igid oğullarımız canları, qanları bahasına xalqımıza böyük Zəfərin sevincini yaşatdılar. Elindən, obasından köçkün düşmüş soydaşlarımızı doğma torpaqlarına, yurd yerlərinə qovuşdurdular.

Xidmətə başladığım gündən bacarıqlı, intizamlı və nümunəvi əsgər kimi xidmət edərək, komandirlərimin və əsgər yoldaşlarımın hörmətini qazanmağa söz vermişəm. Verilən bütün tapşırıqlara məsuliyyətlə yanaşıb, vəzifə borcumu şərəflə yerinə yetirirəm. Vətənə, dövlətə, xalqa xidməti həyatımın mənası hesab edir və şərəfli Azərbaycan əsgəri adını qürurla daşıyıram.

**Əsgər**
**Murad QƏDİMOV**
**"N" hərbi hissəsi**

# Döyüş hazırlığı, mənəvi-psixoloji hazırlıq və Qələbə

İkinci Qarabağ müharibəsinə kimi ön xətdə ezamiyyətlərdə əsgərlərin düşüncələrində həmişə bir istək sezilirdi, bəzən sezilən istək bu və ya digər formada sözlə ifadə də olunurdu: "Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad etməyə hazırıq!" Əsgərlərdən birinin dediklərI səngərli söhbətimizi kükrətmişdi: "Bu əmri qələbə ilə tamamlamağa da hazırıq!" Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan döyüş mövqeyində bu söhbəti mayor Ruslan Novruzov əsgərlərə xitabən demişdi ki, siz yüksək döyüş hazırlığına malik olmaqla bərabər, yüksək döyüş əzminə, yüksək döyüş əzminə görə yüksək qələbə ruhuna da maliksiniz. Hər dəfə döyüş növbətçiliyinə gedəndə mübarizləşib gedirsiniz. Bilirsiniz ki, sizi döyüş növbətçiliyinə qəhrəmanın ruhu uğurlayır. Əsgərlərdən biri Mübariz İbrahimovun qəhrəmanlığının başqa formada, başqa məkanda, başqa şəraitdə təkrar olunduğunu da xatırlatdı: "Çingiz Qurbanov Tovuzda düşmənlə təkbətək döyüşə getmişdi, şəhid olmuşdu. Azərbaycan əsgərinin bu qəhrəmanlığı, cəsarəti, Vətən sevgisi müqabilində öz əsgərlərinin cılızlığını duyan Ermənistan ordusunun rəsmiləri Çingizin nəşini vermək istəmirdilər. Azərbaycan əsgərinin cəsədindən də qisas almaq istəyirdilər. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, Azərbaycan dövlətçiliyinin qüdrəti düşməni bu niyyətdən də çəkindirdi...



Hərbi xidmətə çağırışçı olanda tərxis edilmiş əsgərlərlə söhbətləşirdik. Bizə hərbi xidmətdən, təmas xəttindən, səngərdən, döyüş növbətçiliyindən danışırdılar. Tərxis edilmiş əsgərin dediklərini o da unutmamışdı, indiyəcən biz də unutmamışıq: "Hər dəfə döyüş növbətçiliyinə gedəndə hamımız oradan birbaşa döyüşə getməyi arzulayırdıq". Bu, Azərbaycan əsgərinin döyüş əzmi idi. Bu döyüş əzmi torpaqlarımızın işğaldan azad edilməsinin niyyəti idi, bu niyyəti Vətənə sevgi yaradırdı; döyüş hazırlığı yüksələn əsgərlər də tərxis edilmiş həmin əsgərin niyyətini yaşayırdı, yaşadırdı.

"Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm", - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu kəlamları bu günün əsgərləri üçün hərbi xidmət fəlsəfəsidir, çağırışçılar üçün hərbi xidmətə hazırlığın ideoloji tezislərindən biri. İkinci Qarabağ müharibəsində döyüşən gənclər də, döyüşlərə cəlb edilməyən gənclər də bu kəlamları dövlətimizin başçısının Azərbaycan gəncliyinə müraciəti bilib, indi də belə bilirlər.

Hərbi xidmətin başlıca qayəsi və mahiyyəti əsgərin döyüş hazırlığıdır. Nəzəri biliklərin aşılanması da, müxtəlif miqyaslı və təyinatlı təlimlər də bu hazırlıq üçün hərbi, hərbi-elmi əsaslarla aparılır. Tarix təsdiqləyib ki, yüksək mənəvi-psixoloji hazırlığa malik olmayan ordu döyüş hazırlığının səviyyəsindən asılı olmayaraq qüdrətli ordu ola bilməz. Ermənistan işğal etdiyi ərazilərdə yaratdığı möhkəmləndirilmiş mühəndis-istehkam sədləri ilə qürrələnirdi, ordusunu onun keçilməzliyinə inandırmışdı. Düşmənin ordusu elə güman edirdi ki, bu sədlər Azərbaycan Ordusunun məğlubiyyət manifesti olacaq. Müharibənin ilk günü düşmənin sədləri yerlə-yeksan edildi, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad olundu. Bu, Azərbaycan əsgərinin qələbə ruhunun təntənəsi, Ermənistan əsgərinin isə ruhunun darmadağın edilməsi, lara çırpılması oldu. Düşmən gördü ki, ordusunun döyüş hazırlığı Azərbaycan Ordusunun döyüş hazırlığından qat-qat zəifdir, əsgərinin mənəvi-psixoloji hazırlığı Azərbaycan əsgərinin mənəvi hazırlığının ayaqları altında sürünür!..

Azərbaycan əsgərinin dövlətə, Hərbi Anda sədaqəti, mənəvi-psixoloji hazırlığı müharibədə Qələbəni şərtləndirir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Məsuliyyət, nizam-intizam və əxlaq

***Müasir ordu yalnız silah gücü ilə deyil, mənəvi dəyərləri ilə də seçilməlidir. Bu baxımdan hərbi etiket ordunun döyüş hazırlığı qədər vacib olan, düzgün təşkil edilmiş davranış normaları sistemidir. O, sadəcə qayda-qanunlar toplusu deyil, birbaşa döyüş meydanında qələbə ilə nəticələnə biləcək nizamın, intizamın, hörmətin və məsuliyyətin canlı təcəssümüdür. Əsgərin bir sözə və bir işarəyə dərhal reaksiya verməsi, əmrə tabe olması və komandirinə hörmətlə yanaşması onun fiziki deyil, həm də mənəvi hazırlığının göstəricisidir. Bu hazırlığın formalaşmasında isə hərbi etiketin rolu misilsizdir.***

Ulu Öndər Heydər Əliyevin dediyi kimi: "Hərbi xidmətdə məsuliyyət, nizam-intizam və əxlaq hər bir zabit və əsgərin ayrılmaz xüsusiyyətləri olmalıdır". Bu sitatda etik davranışların konkret tələbləri - məsuliyyət, dürüstlük və intizam önə çəkilir. Yəni, əsgər yalnız fiziki hazırlığı ilə deyil, davranışı və əxlaqı ilə də nümunə olmalıdır.

Hərbi etiket ordunun daxili münasibətlər sistemində sabitliyi qoruyur, tabelik və rəhbərlik arasında sağlam körpü yaradır, hərbi kollektivlərdə qarşılıqlı anlaşmanı təmin edir.

İntizam hərbi qulluqçuların şəxsiyyətində və xidmətində əsas daşıyıcı sütundur. Onun sayəsində əmr və tapşırıqlar mübahisəsiz, vaxtında və düzgün icra olunur. Bu, həm təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsində, həm də döyüş hazırlığı səviyyəsinin artırılmasında mühüm amildir. Hərbi intizam, eyni zamanda, şəxsi məsuliyyət və kollektivin rifahı arasındakı balansı qoruyur, rütbə və vəzifəsindən asılı olmayaraq hər kəsin bir-birinə qarşı hörmətlə davranması, ordu daxilində düzgün münasibətlərin formalaşması üçün zəruridir. Komandirlərə ehtiram, tabeliyində olanlara qarşı isə qayğıkeş və ədalətli münasibət - hərbi etik davranışın ayrılmaz tərkib hissəsidir. Hörmətli münasibət kollektiv ruhunun qorunmasına və xidmətin daha səmərəli təşkilinə təkan verir.

Hər bir hərbi qulluqçu verilən tapşırığa məsuliyyətlə yanaşmalı, onu vaxtında, dəqiq və vicdanla yerinə yetirməlidir. Məsuliyyət yalnız bir tapşırığın icrası deyil, həm də özünə, xidmətinə, komandirinə və Vətənə qarşı daşıdığı borcun şüurlu dərkidir. Məsuliyyətli hərbi qulluqçu hər zaman dəqiq, dürüst və öz fəaliyyətinə cavabdeh olmağı bacaran şəxsdir. Səliqəli və nizamlı geyim forması, şəxsi gigiyena qaydalarına riayət hərbçinin peşəsinə olan münasibətinin göstəricisidir. Bu zahiri görünüş orduya olan ictimai münasibəti də müəyyən edir.

Nizamlı görünüş yüksək daxili məsuliyyətin və şəxsi mədəniyyətin nəticəsidir. Hərbi qulluqçular rəsmi və qeyri-rəsmi şəraitdə öz statuslarına uyğun davranmalıdırlar. Nitq mədəniyyəti, müraciət formaları, təqdimat və salamlaşma qaydaları qarşılıqlı hörmətin, nizam-intizamın təzahürüdür. Sözlərin və davranışların arxasında güclü mənəvi baza dayanmalıdır. Hərbi etiket əsgərin təkcə davranışını deyil, onun dünyagörüşünü də formalaşdırır. Dövlət rəmzlərinə hörmətlə yanaşmaq hərbi qulluqçunun milli mənsubiyyətinə və vətəndaşlıq məsuliyyətinə sadiqliyini ifadə edir. Bu rəmzlər qarşısında göstərilən ehtiram dövlətçiliyə və müstəqilliyə verilən yüksək dəyərin bariz nümunəsidir.

Ordunun nüfuzu onun cəmiyyətlə necə əlaqə qurmasından da asılıdır. Hərbi qulluqçular ictimai yerlərdə davranış qaydalarına əməl etməli, etik davranışları ilə örnək olmalıdırlar. Sakitlik, təmkin, mübahisədən yayınmaq, səhvləri etiraf etmək və öz qüsurlarını qəbul etmək bacarığı hərbi etiketin tələblərindəndir. Cəmiyyətdə ordunun örnək və sarsılmaz nüfuz sahibi kimi tanınması bu nüanslardan başlayır.

Hərbi qulluqçu xidmətə başladığı andan etibarən hərbi etiketlə tanış olur. Təlimlərdə, məşqlərdə, gündəlik fəaliyyətlərdə bu prinsiplərin tətbiqi vərdiş halına çevrilir. Bu qaydalar əzbərlənmir, yaşanır, mənimsənilir və davranışa çevrilir. Hərbi etiket ordu daxilində tabelik sisteminin düzgün qurulmasına, qarşılıqlı münasibətlərin tənzimlənməsinə, mənəvi keyfiyyətlərin inkişafına və ümumi nizamın qorunmasına yardımçı olur. O, eyni zamanda, ordunun cəmiyyət qarşısında nümunəvi görünüşünü təmin edir və hərbi kollektivdə sağlam münasibətlərin formalaşmasına zəmin yaradır.

Hərbi etiket yalnız davranış qaydası deyil, hərbi xidmətin fəlsəfəsidir. O, intizamlı bir ordu quruculuğunun, komandir və əsgər münasibətlərinin, kollektiv birliyin və vətənpərvərlik ruhunun əsasını təşkil edir. Hərbi etiket orduda daxili nizamı qorumaqla yanaşı, cəmiyyətə də ordu haqqında düzgün və müsbət təəssürat yaradır.

Azərbaycan Ordusu bu gün təkcə Silahlı Qüvvə deyil, həm də milli ruhun daşıyıcısı, dövlətimizin ərazi bütövlüyü, suverenliyi və təhlükəsizliyinin qarantıdır. Belə bir orduda xidmət edən hərbi qulluqçu sadəcə əsgər deyil, həm də Vətəninə sədaqətin, hərbi nizam-intizamın, hörmətin və məsuliyyətin canlı simvoludur. Hərbi etiket isə bu kimliyi formalaşdıran və möhkəmləndirən mədəni kod kimi çıxış edir.

Zaman dəyişə bilər, texnologiyalar inkişaf edə bilər, amma hərbi etiketin təməl prinsipləri - hörmət, intizam və məsuliyyət əbədi olaraq qalacaq. Bu prinsiplərə əməl etmək təkcə hərbi borc deyil, həm də milli və mənəvi məsuliyyətdir. Çünki bu prinsiplər üzərində ucalan ordu, yalnız döyüş meydanında deyil, sülh dövründə də dövlətin etibar etdiyi ən böyük qüvvədir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

*Məişət*

# Fədakar qadınlar



***Orduda vacib məişət sahələrindən biri də camaşırxana xidmətidir. Burada şəxsi heyətin yataq dəsti, bütün növ geyimləri, gündəlik istifadə etdiyi dəsmallar yuyulur və ütülənir. Yay və ya qış geyimlərinə keçid zamanı isə üst geyimlər yuyulub bölmələrin anbarına təhvil verilir. Polkovnik-leytenant Elşən Hüseynov dedi ki, camaşırxana istifadəyə verilən gündən burada çalışan xanımlar öz işlərinin öhdəsindən bacarıqla gəlirlər.***

Quruducu maşının operatorları Lətafət Süleymanova və Zenfira Məmmədova artıq 5 ildən çoxdur ki, burada çalışırlar. Lətafət xanım Beyləqan rayonundandır. O dedi ki, hərbi hissədə çalışmaq ona olduqca xoş təsir bağışlayır. Çünki burada Vətənimizi qoruyan, onun uğrunda hər an döyüşə hazır igid oğullarımızın xidmətindədir. Həmyerlisi Zenfira xanım da onunla eyni fikirdədir. O, əvvəllər bir neçə yerdə işləyib, ancaq burada çalışdığı qədər heç bir yerdə işindən bu qədər məmnun qalmayıb. Həm hərbi hissənin komandir heyətindən, həm də camaşırxanada çalışan kollektivin mehribançılığı onu işindən zövq almağa sövq edir.

Yuyucu-sıxıcı maşının operatorları Tükəzban Cəfərova, Rayilə Əliyeva, Yaqut Bəşirova da camaşırxanada çalışan



ən fəal işçilərdəndirlər. Onlar qəbul edilən yataq dəstləri, alt geyimləri, dəsmalları çeşidləyib ardıcıllıqla irihəcmli paltaryuyan maşına doldurur və nəzərdə tutulan yuyucu vasitələri maşına əlavə edib işə salmaqla camaşırların yuyulub başa çatma vaxtını gözləyirlər.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Təyyar Tapdıqov camaşırxanada çalışan işçilərin fəaliyyətinə, avadanlıqların sazlığına, əşyaların vaxtında qəbuluna və təhvil verilməsinə cavabdehlik daşıyır. Təyyar bir neçə ildir ki, burada xidmət edir və ona həvalə olunan bu vəzifənin öhdəsindən layiqincə gəlir.

Camaşırxana binasındakı səliqə-sahman, təmizlik göz oxşayır. Yataq dəstləri, dəsmallar, geyimlər yuyulub ütüləndikdən sonra anbarda rəflərə səliqə ilə yığılır. Əşyaların təhvilinin hesabını aparan Zenfira Məmmədova bölmələrdən gələn hərbi qulluqçuların təhvil alacaqları təmiz əşyaları xüsusi kitabda qeydlər aparmaqla gələn cavabdeh şəxsə verir. Bu cür dəqiq hesabların aparılması həm camaşırxana işçilərində, həm də əşya-əmlakı qəbul edən hərbi qulluqçularda məsuliyyət hissi yaradır.

Rəflərdəki çeşidlənərək ütülənmiş dəstlər diqqətimizdən yayınmadı. Həmin dəstləri Zenfira xanım qəbul edən hərbi qulluqçuya saya uyğun təhvil verirdi. O, camaşırxanada işləyən ən təcrübəli işçilərdən biridir. Dəqiq və məsuliyyətli işçi kimi çalışdığı üçün hər kəsin sevimlisi olub. Zenfira xanım dedi: “İkinci Qara-



bağ müharibəsində çalışdığı hərbi hissədən əlavə digər



hərbi hissələrdən də yumaq üçün geyimlər qəbul edirdik. Onları vaxtında yuyaraq ütüləyib təhvil verirdik. Müharibə zamanı daha da çox işləyib döyüşçülərin geyimlərini yuyub vaxtında onlara göndərirdik. Arxa cəbhədə bir ana kimi əsgərlərə qayğımı gecə-gündüz demədən, yorulmaq bilmədən göstərməyə çalışırdım. Ordumuz qələbə qazandı, 30 ilə yaxın düşmən işğalı altında olan torpaqlarımız azad edildi".

Camaşırxanada işləyən hər bir işçi üzərinə düşən məsuliyyəti dərk edir, qarşılarına qoyulan tapşırığı vicdanla yerinə yetirir. Onların bu cür fədakarlıqları sayəsində əsgərlər təmiz yataqla və alt geyimlə təmin olunurlar.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Sağlam bədəndə sağlam ruh olar*

# Çempionlarımızı tanıyaq

## Əsgər Mürvət Söydümov

*Sərbəst güləş üzrə Azərbaycan çempionu*



"Fiziki hazırlıq hərbi qulluqçunun xidmət keyfiyyətinə birbaşa təsir göstərən əsas amillərdən biridir. Yüksək fiziki göstəricilərə malik olan əsgər verilən tapşırıqları daha çevik, sürətli və dəqiq yerinə yetirir. Hərbi hissəmizdə hər bir əsgərin fiziki hazırlığını inkişaf etdirməsi üçün hər bir şərait yaradılıb. Mülki həyatda idmanla məşğul olan biri kimi deyə bilərəm ki, burada yaradılan şəraitdən səmərəli şəkildə istifadə edirik. Qarşıma qoyduğum əsas məqsəd - sağlam, intizamlı və yüksək döyüş hazırlığına malik əsgər kimi formalaşmaq, Vətənim Azərbaycana layiqli xidmət etməkdir".

## Əsgər Kənan Şükürov

*Karate üzrə Azərbaycan çempionu*



"Hərbi xidmətə başlamamışdan öncə idmanın karate növü ilə məşğul olmuşam. Hədəfim hər zaman şanlı bayrağımızı digər dövlətlərin bayraqları arasında birinciliyə qaldırmaq olub. İnanıram ki, müddətli həqiqi hərbi xidmətimi başa vurduqdan sonra məqsədimə nail olacağam. Bunun üçün hərbi hissəmizdə hər cür şərait yaradılıb. Komandanlıq tərəfindən hərbi hissəmizdə yaradılan şəraiti gördükdə çox sevindim. Xidmət yoldaşlarımla birlikdə günün nizam qaydalarına uyğun olaraq fiziki hazırlıqla məşğul olur, idman bacarıqlarımızı artırırıq. Anlayırıq ki, fiziki hazırlığı yüksək olan əsgər təlimdə və döyüş meydanında qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən rahatlıqla gələ bilər".

**"Azərbaycan Ordusu"**

## "Ordu" İdman Klubu pley-off mərhələsinə vəsiqə qazanıb



Azərbaycan Basketbol Liqasında pley-in mərhələsinin ikinci oyunları çərçivəsində "Ordu" İdman Klubunun yığması "Quba" komandası ilə qarşılaşıb. Qarşılaşmada "Ordu" klubunun komandası 92:88 xal hesabı ilə qalib gəlib.



İki oyundan ibarət seriyada hər iki qarşılaşmada üstünlük əldə edən "Ordu" klubu Azərbaycan Basketbol Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb.

Növbəti mərhələdə "Ordu"nun rəqibi "Neftçi" olacaq.

**"Azərbaycan Ordusu"**

# İdman

## Gimnaziadada uğurla çıxış etmiş Azərbaycan idmançıları Vətənə qayıdıblar



Serbiyanın Zlatibor şəhərində keçirilmiş Gimnaziada İdman Oyunlarında uğurla çıxış edən Azərbaycan təmsilçiləri Vətənə qayıdıblar.

Onları Heydər Əliyev Beynəlxalq Aeroportunda media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

Qeyd edək ki, Azərbaycan idmançıları idman gimnastikası, kamandan oxatma, 3x3 basketbol, çimərlik voleybolu, boks, şahmat, tennis, badminton, parabadminton, üzgüçülük, paraüzgüçülük, stolüstü tennis, taekvondo, karate, cüdo, güləş, qılıncoynatma və atletika idman növləri üzrə ümumilikdə 191 idmançı ilə təmsil olunub. Ölkəmiz yarışlarda 35-i qızıl, 12-si gümüş, 28-i bürünc olmaqla ümumilikdə 85 medal qazanıb.

## Azərbaycanın üç güləşçisi Avropa çempionu olub



Azərbaycanın üç yunan-Roma güləşçisi Slovakiyanın paytaxtı Bratislavada keçirilən Avropa çempionatında qızıl medal qazanıb.

Nihat Məmmədli (60 kiloqram) finalda serbiyalı Georgi Tibilovu, Həsrət Cəfərov (67 kiloqram) bolqarıstanlı Əbu Müslim Amayevi, Qurban Qurbanov (67 kiloqram) isə macarıstanlı Erik Silvassini məğlub edib.

Bununla da Q.Qurbanov ilk, N.Məmmədli ikinci, H.Cəfərov üçüncü dəfə Avropa çempionu adına sahib çıxıb.

Ülvi Qənizadə (72 kiloqram) isə üçüncü yer uğrunda görüşdə Aleksandr Liavonçikə qalib gələrək bürünc mükafatla kifayətlənib.

Qeyd edək ki, daha əvvəl sərbəst güləşçilər 1 qızıl, 1 gümüş və 4 bürünc, yunan-Roma güləşçiləri isə 1 gümüş və 1 bürünc medal qazanıblar. Qadınların yarışında isə Jalə Əliyeva (57 kiloqram) bürünc mükafata yiyələnib.

## Azərbaycan üzgüçüləri Çexiyadakı Qran-pridə 17 medal qazanıblar



Azərbaycan üzgüçüləri Çexiyanın Ostrava şəhərində keçirilən dünya çempionatına lisenziya xarakterli Qran-pridə 17 medal qazanıblar.

Bunlardan 2-si qızıl, 8-i gümüş, 7-si isə bürünc mükafatdır.

Ramil Vəlizadə ilə Süleyman İsmayılzadə hərəyə 1 qızıl və 2 gümüş, Əbdürrəhman Rüstəmovla Fatimə Alkərəmova hərəyə 2 gümüş, 1 bürünc medala sahib çıxıblar. Oqtay Hüseynov 3, Səid Həmidov isə 3 növdə fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Qeyd edək ki, turnirdə 5 ölkə - Çexiya, Azərbaycan, Fransa, Polşa və Sloveniyadan 350-yə yaxın idmançı iştirak edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Cənubi Koreya və ABŞ-ın hərbi hava qüvvələri birgə təlimlər keçirib



Koreya Respublikasının və ABŞ-ın hərbi hava qüvvələri Birləşmiş Ştatların B-1B strateji bombardmançı təyyarəsinin iştirakı ilə təlimlər keçirib.

KBS telekanalı bu barədə Cənubi Koreya Müdafiə Nazirliyinə istinadla məlumat yayıb.

Birgə manevrlər Amerika bombardmançısının Koreya yarımadasında yerləşdirilməsi ilə bağlı baş tutub. Təlimlərə, həmçinin Cənubi Koreyanın F-16 və F-35A qırıcıları, ABŞ-ın isə F-16 qırıcıları cəlb olunub.

Manevrlər KXDR-də raket və nüvə proqramlarının inkişafı fonunda Koreya Respublikasının çəkindirici potensialını nümayiş etdirmək məqsədi daşıyıb.

Qeyd edək ki, fevralın 20-də B-1B bombardmançısının iştirakı ilə oxşar təlimlər baş tutmuşdu.

## Almaniya ordusunun 100 min nəfər əlavə ehtiyat əsgərə ehtiyacı var



Almaniya Silahlı Qüvvələrinin (Bundesver) baş inspektoru Karsten Breuer ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi məqsədilə 100 min əlavə ehtiyat əsgərə ehtiyac olduğunu açıqlayıb.

O, "Welt am Sonntag" nəşrinə müsahibəsində hazırda Bundesverin şəxsi heyətinin təxminən 182 min nəfərdən ibarət olduğunu bildirib. Qeyd edib ki, buna baxmayaraq, Almaniya NATO qarşısında götürdüyü öhdəliklər və Şərq cinahında artan təhlükəsizlik çağırışları fonunda 200 min aktiv əsgər olmaqla ümumilikdə 460 min nəfərlik hərbi potensiala ehtiyac duyur. Beləliklə, təxminən 260 min nəfərdən ibarət ehtiyat qüvvənin formalaşdırılması zərurəti yaranıb.

General qeyd edib ki, ordu sıralarından son illər ərzində tərxis olunmuş 800 min keçmiş əsgər arasından 100 min nəfərin yenidən ehtiyat xidmətə cəlb olunması planlaşdırılır. Hazırda Bundesverin strukturunda 60 min nəfərlik daimi ehtiyat heyəti mövcuddur. Buna baxmayaraq, hələ də 100 min nəfərlik boşluq qalmaqdadır.

O, ehtiyat qüvvələrin əmək bazarında hazır formada mövcud olmadığını vurğulayaraq, bu problemin həllinin yalnız hərbi xidmətin tətbiqi ilə mümkün olduğunu qeyd edib. Baş inspektor bu xidmətin məcburi, yoxsa könüllü qaydada həyata keçiriləcəyinin tamamilə siyasi qərar olduğunu deyib.

Qeyd edək ki, Almaniyada ümumi hərbi xidmət 2011-ci ildə ləğv edilib. Lakin son illərdə Avropada təhlükəsizliyi təhdid edən ciddi hərbi-siyasi dəyişikliklər fonunda bu məsələnin yenidən gündəmə gətirilməsi ölkə ictimaiyyətində geniş müzakirələrə səbəb olub.

**AZƏRTAC-ın materialları əsasında**

Məmmədov Namiq Fizuli oğluna verilmiş MV № 106512 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynov Süleyman Qurban oğluna verilmiş MV № 071708 nömrəli müharibə veteranı vəsiqəsi yararsız hala düşdüyü üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 149
Nüsxə 3663